

# Zabil PƏRVİZ - 70

Hörmətli qələm dostumuz Zabil Pərviz!

Sizi - tanınmış şairi 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1952-ci il noyabrın 17-də Neftçala rayonunun Qaçaqkənd kəndində, ziyalı ailəsində anadan olmusunuz. 1970-ci ildə Salyan şəhər Nizami Gəncəvi adına 2 saylı orta məktəbi bitirib, elə həmin il Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Filologiya fakültəsinə daxil olmusunuz. 1974-cü ildə ali məktəbi bitirəndən sonra Salyan və Neft - çala rayonlarında yerləşən orta məktəblərdə Azərbaycan dili və ədəbiyyat müəllimi kimi fəaliyyət göstərmisiniz. Pedaqoji fəaliyyətlə bərabər, mətbuat sahəsində çalışaraq Neftçala rayonunda dərc olunan "Gündoğar" qəzetinin əməkdaşı olmusunuz.

Sizin imzanız oxuculara hələ tələbəlik illərinizdən tanışdır. 1973-cü ildə Xalq şairi Xəlil Rza Ulutürk ilk şeirlərinizi "Bakı" axşam qəzetinə təqdim edib. Bundan sonra mütəmadi olaraq respublikanın qəzet və jurnallarında dərc olunmağa başlamısınız. 1974-cü ilin fevral ayında Xalq yazıçısı, Azərbaycan Yazıçılar İttifaqının sədri Mirzə İbrahimovun təşəbbüsü ilə keçirilən Gənclər Günlərində iştirak etmisiniz. Şeirləriniz ustad sənətkarlar tərəfindən rəğbətlə qarşılanıb. Daha sonralar əsərləriniz respublikanın qəzet və jurnallarında, müxtəlif nüfuzlu ədəbi almanaxlarda çap olunub. 1985-ci ildə "Yazıçı" nəşriyyatı tərəfindən sizin "Yarı qönçə, yarı gül" adlı şeirlər kitabınız çap edilib. Ümumiyyətlə, yaradıcılığınız haqqında görkəmli ədəbiyyat xadimləri Mirzə İbrahimov, Qulamhüseyn Beqdeli, Bəkir Nəbiyev, İmamverdi Əbilov, Əliağa Kürçaylı, Söhrab Tahir, Xəlil Rza Ulutürk, Rüstəm Behrudi, Barat Vüsal və başqaları dəyərli fikirlər söyləyib, məqalələr yazıblar. 2019-cu ildə çap olunan "Yaşıl simfoniya" kitabınız ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanıb.

Hörmətli Zabil Pərviz, sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, yaradıcılq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**